# Keçmişlə bu gün arasında körpü




**Hər il mayın 18-də dünya üzrə qeyd olunan Beynəlxalq Muzeylər Günü mədəni irsin qorunması və ictimaiyyətə çatdırılması sahəsində muzeylərin mühüm rolunu vurğulayır. Bu əlamətdar gün ilk dəfə 1977-ci ildə Beynəlxalq Muzeylər Şurası (ICOM) tərəfindən təsis edilib və o vaxtdan etibarən dünyanın müxtəlif ölkələrində qeyd olunur.**

Beynəlxalq Muzeylər Günü cəmiyyət və mədəniyyət arasında körpü rolunu oynayan muzeylərin fəaliyyətini və maarifləndirici rolunu cəmiyyətə çatdırır. Muzeylər gələcək nəsillərin yaddaşını formalaşdıran mədəni institutlardır. Onlar tarix, incəsənət, elm, texnologiya və təbiət haqqında bilikləri toplamaq, saxlamaq və paylaşmaqla cəmiyyətin intellektual və estetik inkişafına töhfə verir. ICOM hər il Beynəlxalq Muzeylər Gününə xüsusi bir mövzu həsr edir. Mövzular ekologiyadan tutmuş inklüzivliyə, texnologiyadan dayanıqlı inkişaf hədəflərinə qədər geniş spektri əhatə edir.

Əlamətdar gün münasibətilə bir çox ölkədə muzeylərdə sərgilər, seminarlar, açıq qapı günləri, uşaq proqramları və interaktiv tədbirlər təşkil olunur. Bir çox muzey həmin gün ziyarətçilər üçün pulsuz giriş imkanı yaradır.

Azərbaycanda da Beynəlxalq Muzeylər Günü geniş şəkildə qeyd olunur. Ölkəmizdə fəaliyyət göstərən milli, regional və tematik muzeylər tariximizin, incəsənətimizin və elmi nailiyyətlərimizin qorunmasında mühüm rol oynayır. Azərbaycan Xalça Muzeyi, Milli İncəsənət Muzeyi, Tarix Muzeyi və digər nüfuzlu mədəniyyət ocaqları bu sahədə həm yerli, həm də beynəlxalq səviyyədə əhəmiyyətli fəaliyyət göstərirlər.

Muzey anlayışı eramızdan əvvəl Krit, Çin, Roma və Yunanıstanda estetik və mədəni əşyaların saxlandığı məkanlarla başlayıb. Azərbaycan ərazisində mövcud olmuş Atropatena və Albaniya dövlətlərinin saraylarını da muzeylərin ilkin forması kimi dəyərləndirmək olar. Orta əsrlərdə qiymətli əşyalar xəzinələrdə və saray kitabxanalarında qorunurdu. XIX əsrin sonlarından etibarən Azərbaycanda muzeyçilik formalaşmağa başlayıb. İlk təşəbbüslərdən biri Cəlil Məmmədquluzadənin iştirakı ilə Nehrəm kənd məktəbində yaradılıb. Daha sonra Bakıda müxtəlif sahələr üzrə qapalı muzeylər təşkil edilsə də, bu məkanlar əsasən çarizmin maraqlarına xidmət edirdi. 1919-cu ildə Xalq Cümhuriyyəti dövründə ilk milli muzeyin əsası qoyulub və 1920-ci ildən Azərbaycan Dövlət Muzeyi kimi fəaliyyət göstərib. Sovet dövründə müsadirə olunan sənət əsərləri, o cümlədən Hacı Zeynalabdin Tağıyevin mülkündə yerləşdirilən eksponatlar Milli Azərbaycan Tarix Muzeyinin fondunu zənginləşdirib. 1930-cu illərdən etibarən müxtəlif profilli muzeylər yaradılıb.

Erməni işğalı dövründə Qarabağda fəaliyyət göstərən bir çox muzeylər, Şuşa, Ağdam, Qubadlı, Zəngilan və digər rayonlardakı mədəniyyət ocaqları qarət və dağıntılara məruz qalıb. SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi belə ermənilər tərəfindən yerlə-yeksan edilib. Muzey işinə dövlət səviyyəsində xüsusi önəm verən ümummilli lider Heydər Əliyev bu sahənin inkişafı üçün geniş tədbirlər görüb. Onun təşəbbüsü ilə məşhur şəxsiyyətlərin memorial muzeyləri yaradılıb, qanunvericilik bazası formalaşdırılıb. 2000-ci ildə qəbul olunmuş "Muzeylər haqqında" Qanun bu sahənin hüquqi əsaslarını müəyyən edib. Hazırda bu siyasət Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Heydər Əliyev Fondu muzeylərin bərpası, beynəlxalq miqyasda təbliği sahəsində mühüm layihələr həyata keçirir. Eyni zamanda son illərdə işğaldan azad edilmiş ərazilərdə yenidən qurulan və planlaşdırılan muzeylər Azərbaycanın mədəni irsinin bərpası və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**